# Pambıqçılıq, üzümçülük, taxılçılıq və turizm....

## İşğaldan azad edilən Füzuli rayonu iqtisadi inkişafımızın əsas lokomotivlərindən birinə çevriləcək



**Azərbaycan xalqı tarixinin ən yaddaqalan və şanlı dönəmlərindən birini yaşayır. Azərbaycan Ordusu vaxtilə nağıl kimi görünən həqiqətləri günbəgün həyata keçirir, işğal olunmuş ərazilərdən didərgin düşmüş əhalinin uzun illərdir davam edən həsrətinə son qoyulur.**

27 ildir ki, Azərbaycandan ayrı düşmüş torpaqların müjdələri gəlir və onlara qovuşuruq. Bu həsrətin son qoyulduğu ilk rayonlardan biri də Füzuli oldu. Bəs bu rayonun hansı sosial-iqtisadi imkanlar var? Füzuli rayonu iqtisadiyyatımıza hansı töhfələri verəcək?

### "RAYON AQRAR VƏ SƏNAYE POTENSİALINA MALİKDİR"

**Milli Məclisin deputatı Vüqar Bayramov** deyir ki, işğaldan azad olunmuş ərazilərin kifayət qədər böyük iqtisadi potensialı var. Amma nəzərə almalıyıq ki, birinci mərhələdə həmin ərazilərin minalardan təmizlənməsi, daha sonra bərpası həyata keçiriləcək. Təbii ki, növbəti mərhələdə həmin ərazilərin iqtisadi töhfəsi də müzakirə olunacaq. Şübhəsiz, Azərbaycana iqtisadi töhfə verə biləcək şəhərlərdən biri də Füzulidir: "Belə ki, Füzuli rayonu işğaldan öncə ölkəmizin iqtisadi gücə malik olan aparıcı bölgələrindən hesab olunurdu. Pambıqçılıq və taxılçılıq üzrə öndə olan rayonlardan biri kimi Füzulidə kənd təsərrüfatının digər istiqamətləri də inkişaf etmişdi. Rayon eyni zamanda, sənaye məhsullarının istehsalına görə də fərqlənirdi. Ərazisi 1386 kvadratkilometr, əhalisi isə 150 min nəfərə yaxın olan Füzuli artıq bərpa və böyük quruculuq dövrünə qədəm qoyacaq. İranla sərhəddə yerləşən Füzuli rayonu strateji coğrafi yerləşməyə sahib olmaqla yanaşı, Azərbaycanın xarici iqtisadi əlaqələrinə də töhfə vermə imkanlarına malikdir. Ən qədim yaşayış yerlərindən biri olan Azıx mağarasının yerləşdiyi Füzuli rayonu əlverişli təbiəti və füsunkar mənzərəsi ilə də fərqlənir. Bu daxili, o cümlədən gəlmə turizm üçün yeni imkanlar deməkdir".

Deputatın sözlərinə görə, rayon aqrar və sənaye potensialına malikdir və bərpa prosesindən sonra kənd təsərrüfatı sənayesi üzrə Füzuli rayonunun potensialından daha çox istifadə ediləcəyi gözlənilir: "Füzuli rayonu əhalisinin sayına görə işğaldan azad olunan rayonlardan ən böyüyüdür. Bu da nəticə etibarilə həmin rayonunu xüsusən də işçi qüvvəsi və insan kapitalının inkişaf etməsi anlamına gəlir. Eyni zamanda, Füzuli işğaldan əvvəlki dövrlərdə bir sıra kənd təsərrüfatı məhsullarının istehsalına görə, Azərbaycanda öndə gedən rayonlardan idi. Xüsusən də pambıq istehsalına görə ötən əsrin 80-ci illərində Füzuli rayonunun xüsusi payı var idi. Daha sonra üzümçülük eləcə də taxılçılıq inkişaf etməyə başladı və praktik olaraq pambıq, taxıl, üzüm istehsalına görə Füzuli respublikada işğaldan əvvəlki dövrlərdə fərqlənən rayonlardan olub. Eyni zamanda, rayonda inşaat materialının istehsalı daxil olmaqla, bir sıra sənaye tipli müəssisələr var idi və bu da rayonda xüsusilə də qeyri- enerji sektoru üzrə sənaye sahələrinin inkişaf etməsindən xəbər verirdi. Bu baxımdan təbii ki, biz Füzuli rayonunda həm də sənaye müəssisələrinin bərpası və istifadəsi mümkündür".




### AZIX MAĞARASI, ŞAH İSMAYIL MƏSCİDİ...

Millət vəkili hesab edir ki, Füzuli rayonu daxil turizm, eləcə də gəlmə turizm baxımından kifayət qədər cəlbedicidir: "Xüsusilə nəzərə alsaq ki, Füzuli rayonunda Dağlıq Qarabağa yaxın olan ərazilərində iqlim və təbiət gəlmə turistlər üçün cəlbedicidir. Bu da təbii ki, turizmin inkişafı üçün imkanlar yaradır. Eyni zamanda, Füzuli rayonunda kifayət qədər çox tarixi abidə var. Məsələn, Azıx mağarası, şəhərin yaxınlığındadır. Şah İsmayıl məscidi rayonun Qarğabazar kəndində yerləşir. Hansı ki, Şah İsmayıl həmin məsciddə namaz qılıb. Ona görə həm tarixi, həm dini abidələrə var ki, bu da gəlmə turizm üçün cəlbedicidir və gəlmə turizmin inkişafını sürətləndirə bilər. Rayonun potensialı kifayət qədər böyükdür bu, imkan verəcək ki, biz bərpa prosesindən sonra Füzulinn ölkə iqtisadiyyatının inkişafına xüsusi töhfəsini müşahidə edək".

Deputat vurğuladı ki, işğaldan azad olunan bölgələrimiz növbəti dövrdə Azərbaycan iqtisadi inkişafının əsas lokomotivlərdən birinə çevriləcək.

### "İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRİN ZƏNGİN İQTİSADİ POTENSİALI MÖVCUDDUR"

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən** verilən məlumata görə, işğal olunmuş ərazilərin zəngin, iqtisadi potensialı mövcuddur: "İşğaldan azad olunan ərazilərin tarixi-mədəni dəyəri ilə yanaşı, zəngin iqtisadi potensialı da mövcuddur. Bu ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyası ilə yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin çəkdiyi və bundan sonra da tərəddüdsüz və xüsusi fiskal gərginlik yaşamadan çəkəcəyi bütün maliyyə xərclərini dəfələrlə üstələyəcək. İşğal olunmuş ərazilərin iqtisadi potensialının əsas parametrlərinə diqqət yetirsək görərik ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ və onun ətrafında olan Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam (rayon mərkəzi və ərazisinin böyük hissəsi), Füzuli (rayon mərkəzi və ərazisinin böyük bir hissəsi) inzibati rayonları 1989-1993-cü illərdə Ermənistan tərəfindən işğal olunub və işğal tarixindən bu günədək talançılıq, qeyri-səmərəli istismar nəticəsində regionun infrastrukturu yox səviyyəsinə gətirilib. Bu səbəbdən, gələcək bərpa işləri ümumi infrastrukturun (yollar, qaz, su, elektrik enerjisi, rabitə) və ilkin yaşayış şəraitin qurulmasından başlamalı və sonrakı mərhələdə isə iqtisadi inkişaf layihələrinə keçilməlidir".

### DÜNYANIN ƏN QƏDİM İNSAN MƏSKƏNİ

Məlumat üçün bildirək ki, Füzuli həm də dünyanın ən qədim insan məskənlərindən biridir. Təsadüfi deyil ki, Azıx mağarası məhz həmin ərazidədir. Füzuli rayonu ərazisində müxtəlif dövrlərdə Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqatlar aparılıb, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilib. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal-Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km aralı məsafədə yerləşən Azıx mağarasında tapılıb. Azərbaycanın arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu sübut etdi.

Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edib. Bu da məhsuldarlıq baxımından kənd təsərrüfatına yararlı boz, şabalıdı, boz -qəhvəyi torpaq sahələrinin olması ilə izah edilir. İşğala qədər rayonda taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq geniş inkişaf edib. Rayonda 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı, 11 üzüm emalı müəssisəsi və s. vardı. Kənd təsərrüfatına yararlı torpaqlar 85 min hektar idi. 50,9 min hektar otlaq sahələri var idi. Rayonda Köndələn çayı üzərində Köndələn su anbarı tikilmiş, suvarma kanalları çəkilmişdi. Suvarılan torpaqlar 24 min hektardır. İşğaldan əvvəl təsərrüfatlarda 17.6 min baş qaramal, 70 min baş qoyun və keçi saxlanılırdı. Kənd təsərrüfatı ilə yanaşı, rayonda tikinti tresti, 6 nəqliyyat təşkilatı, 13 sənaye müəssisəsi və s. fəaliyyət göstərirdi.

Mədəniyyətin inkişafına görə, ölkənin digər bölgələrindən geri qalmayan Füzuli rayonunda işğala qədər 90 kitabxana, 20 mədəniyyət evi, 79 klub, 20 kinoqurğu, 2 muzey, xalq və dövlət dram teatrları, istirahət parkları fəaliyyət göstərib. Təhsil və səhiyyədə də yaxşı göstəricilərə malik rayonda 685 çarpayılıq 13 xəstəxana, 17 həkim məntəqəsi, 30 feldşer-mama məntəqəsi, vərəm, dəri və zöhrəvi xəstəlikləri dispanseri, texnikum, 86 ümumtəhsil məktəbi, 2 texniki peşə məktəbi, 65 məktəbəqədər müəssisə, stadion, və s. obyektlər olub.



Bu gün Füzuli rayonu yeni və tarixi mərhələyə qədəm qoyur. Bu imkanı bizə qismət edən Ali Baş Komandamıza və Azərbaycan Ordusuna minnətdarıq.

**Aygün ƏZİZ**